# ÖDƏNİŞLİ YAY TƏCRÜBƏ PROQRAMI

### Ödənişli yay təcrübə proqramı

Norm ASC peşəkar iş mühitindən yararlanaraq gənclərin bilik və bacarıqlarının artırılmasına kömək məqsədi ilə 2023-cü il üçün ödənişli “Yay Təcrübə Proqramı” elan edir. Təcrübə proqramı sizə texniki və fərdi bacarıqlarınızı real iş yerində inkişaf etdirməyə kömək olacaqdır.

### Müraciət prosesi:

Müraciət üçün 9 May 2023-cü il tarixinədək **internship@norm.az** email ünvanına mövzu hissəsində uyğun gəldiyiniz ixtisas adını və aşağıda qeyd olunan sənədləri əlavə edərək göndərməyiniz xahiş olunur.Yalnız müvafiq tələb olunan qaydada edilən müraciətlər nəzərdən keçiriləcək.

### Müraciət üçün:

- Elektron CV
- Tələbə biletinin süräti

### Şərtlər:

İş qrafiki: 5 günlük iş həftəsi
Başlama tarixi: 3 İyul
Bitmə tarixi: 8 Sentyabr
Nahar və nəqliyyat xidməti təmin edilir

### Şirkət haqqında

İstehsal gücü gündə 5300 ton klinker, ildə isə 2,1 milyon ton sement təşkil edən Norm Sement zavodu Cənubi Qafqazın ən böyük sement zavodudur. Zavodda istehsal olunan sement məhsullarına Almaniyanın VDZ Elmi-tədqiqat institutu tərəfindən sertifikat verilib. Müəssisənin idarəetmə sistemi DNV GL tərəfindən ISO 9001, ISO 14001 və ISO 45001 standartlarına uyğun sertifikatlaşdırılıb. Norm ASC Cənubi Qafqaz regionunda API Q1 (Amerika Neft İnstitutu) sertifikatını əldə edən və API 10A standartına uyğun quyu-tamponaj sementi istehsal edən ilk müəssisədir. Şirkət Qlobal Sement və Beton Assosiasiyasının (GCCA) üzvüdür.

### Seçim prosesi:

- Yazılı test mərhələsi (İngilis dili, məntiq və dünyagörüşü üzrə)
- Müsahibə mərhələsi

### Kimlər müraciət edə bilər:

Təcrübə proqramına aşağıdakı adları qeyd olunan və ya onlara aid olan digər əlaqəli ixtisaslar üzrə təhsil alan III və IV kurs bakalavr tələbələri qatıla bilərlər:

- İnşaat Mühəndisliyi
- Materiallar Mühəndisliyi
- Sənaye Mühəndisliyi
- Kimya Mühəndisliyi
- Mədən Mühəndisliyi
- Mexanika Mühəndisliyi
- Elektrik, Elektronika və Avtomatika
- SƏTƏM/Ekologiya
- İnformasiya Texnologiyaları
- Maliyyə
- Mühasibat Uçotu və Audit
- İqtisadiyyat
- Menecment
- İnsan Resurslarının İdarə Edilməsi
- Biznesin Təşkili və İdarə Edilməsi
- Təchizat Zəncirinin İdarə Edilməsi
- Nəqliyyatın təşkili və İdarə Edilməsi

